# SİMMENTAL CİNSLİ BUĞALARIN TOXUMLARI İLƏ YERLİ QARAMALIN ÇARPAZLAŞDIRILMASINDAN ALINAN BALALARIN İSTİQAMƏTLİ YETİŞDİRİLMƏSİ VƏ YEMLƏNDİRİLMƏSİ

**Təranə Hacıyeva, Yusif Əbdüləzimov, Mehriban Həsənova**

*Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Heyvandarlıq Elmi-Tədqiqat İnstitutu, haciyeva.t001@gmail.com, yusif_ebdulezimov@mail.ru, mehriban.həsənova.1968@mail.ru*

Kənd təsərrüfatı Azərbaycanın iqtisadiyyatının əsas sahələrindən biridir. 2020-ci ildə ümumi daxil məhsul istehsalında ölkə üzrə kənd məhsullarının artımında uğurlar əldə edilmişdir ki, bunun da 52%-i heyvandarlıq sektorunun payına düşür. Heyvandarlığın əsas aparıcı sahəsi isə maldarlıqdır. Ölkənin ət balansında mal ətinin xüsusi çəkisi 48%-dən yüksəkdir, istehsal olunan südün isə 98%-i inək və çamışlardan sağılır. Bu, o deməkdir ki, ölkənin ərzaq təhlükəsizliyini maldarlığın inkişafı müəyyən edir. Müasir heyvandarlığın inkişaf etdirilməsi dedikdə hər şeydən əvvəl, yüksək məhsuldar yeni heyvan cinslərinin yaradılmasını və mövcud cinslərin təkmilləşdirilməsini düşünmək lazımdır. Bu məsələnin həllinə isə ancaq embrion dövründən başlayaraq, həm ana bətnində, həm də doğulduqdan sonra orqanizmin böyümə və inkişafına nəzarət etmək, ona lazım olan istiqamətdə təsir göstərmək və onu idarə etməklə nail olmaq olar.

Əhalinin heyvandarlıq məhsullarına artan tələbatını yerli mal-qara ödəmir, çünki yerli qaramal xırda və az məhsuldar, ancaq südünün yağlılıq faizi çox, təbii iqlim şəraitinə və təsərrüfat şəraitinə olduqca yaxşı uyğunlaşmışdır. Ona görədə respublikamızda yetişdirilən yerli qaramalı yüksək məhsuldar simmental cinsli buğaların toxumları ilə yaxşılaşdırmaq məqsədə uyğundur. Yerli inəklərin məhsuldarlıq gösdəricilərinin yaxşılaşdırılması üçün biotexnoloji metodlarından, yəni süni mayalanmadan istifadə etmək əhəmiyyətlidir. Azməhsullu mövcud mal-qaranı tezliklə kütləvi surətdə dəyişdirmək istədikdə bu üsuldan istifadə edilir. Bu zaman müxtəlif cinsə mənsub olan yerli heyvanlar arzu olunan cinsin törədiciləri, yaxud onların toxumu ilə mayalandırılır və alınan nəsil "mələz" adlandırılır. Mələz heyvanlarda yaxşılaşdırıcı cinsin "qanı" artdıqca çarpazlaşdırmanın səmərəliliyi artır və nəslin genofondu zənginləşir.

Tədqiqatlar nəticəsində aydın olur ki, alınan I nəsl bala daha erkən yetişir və möhkəm konstitusiyaya malik olur. Yetişdirmə zamanı alınan nəsl heyvanlara uyğun qidalanma və saxlanma şəraiti yaradılarsa, onların məhsuldarlıq və digər faydalı göstəriciləri valideyn formalarından xeyli üstün olur ki, bu da çarpazlaşma zamanı yaranmış olan heterozis hadisəsinin nəticəsində baş verir. Nəzərə alsaq ki, xarici ölkələrdən məhsuldar cins inəklərin gətirilməsi uzun müddət davam edə bilməz, ona görə ki, xaricdən gətirilmiş cinslərin respublika ərazisində uyğunlaşma qabiliyyəti nisbətən aşağı olduğu üçün həmin heyvanlar müəyyən fəsadlarla rastlaşırlar. Bu isə onların iqtisadi səmərəliliyini aşağı salır. Ona görədə respublikamızda mövcud olan yerli cinslərin məhsuldarlıq göstəricilərinin artırılması və cins tərkibinin yaxşılaşdırılması üçün dünya praktikasında sınaqdan keçirilmiş biotexnoloji üsullardan istifadə etmək məqsədə uyğun hesab edilir. Simmental cinsi ət-lik-südlük cins olmaqla çox yaxşı adaptasiya qabiliyyətinə malik olduğuna görə bir çox ölkələrdə geniş yayılmışdır. Bu cinsdən yerli qaramalın damazlıq və məhsuldarlıq keyfiyyətlərinin təkmilləşdirilməsi məqsədi ilə istifadə edilir. Eyni zamanda bu cinsdən intensiv yemləmədə də geniş istifadə edilir. İnəklərin canlı kütləsi 550-650 kq, buğaların canlı kütləsi isə 900-1200 kq olur.

Hazırda işğaldan azad edilmiş ərazilərimizdə də bu üsulun tətbiqi ilə heyvandarlıqda məhsuldarlığın inkişaf etdirilməsi üçün çox geniş potensial imkanlar var.